

# Türk dünyasının qızıl əsrində müasir çağırışlar və yeni perspektivlər

**Türk Dövlətləri Təşkilatı (TDT) türkdilli ölkələr arasında əməkdaşlığı gücləndirmək, siyasi, iqtisadi, mədəni maraqları qorumaq və inkişaf etdirmək məqsədilə yaradılmış beynəlxalq təşkilatdır. Təşkilatın əsas məramı üzv dövlətlər arasında qarşılıqlı etimadı, təhlükəsizlik və sabitliyi təmin etmək, regional, eləcə də qlobal səviyyədə türk xalqlarının birliyini möhkəmləndirməkdir. TDT-yə Azərbaycan, Türkiyə, Qazaxıstan, Qırğızıstan, Özbəkistan kimi türkdilli ölkələr daxildir və bu dövlətlər tarixi, mədəni köklərə, ortaq dil və dəyərlərə sahibdirlər.**

Türk Dövlətləri Təşkilatı üzv ölkələr arasında iqtisadi əlaqələri dərinləşdirmək, ortaq enerji və nəqliyyat layihələrini həyata keçirmək üçün geniş imkanlar yaradır. Bundan əlavə, təşkilat türkdilli öl-



ər arasında mədəniyyət, elm, sil və turizm sahələrində əmək- ıq edərək ortaq dəyərləri təbliğ Türk xalqları arasında birlik və rəylik ruhunun qorunub saxla- ası TDT-nin əsas məqsədlərin- biridir, çünki bu, qlobal siyasi ada türkdilli ölkələrin güc və zunun artmasına imkan yaradır. əşkilatın fəaliyyəti türklərin öz ni irsinə, milli kimliyinə və gə- inə olan bağlılığını əks etdirir, lli ölkələrin birgə inkişafına mü- öhfə verir.

2024-cü il noyabrın 6-da Qırğızıstanın paytaxtı Bişkekdə Türk Dövlətləri Təşkilatının Dövlət Başçılarının XI Zirvə görüşü keçirilib. Bu görüş türk dünyasının müxtəlif bölgələrindən olan liderləri bir araya gətirərək qarşılıqlı münasibətləri dərinləşdirmək və müasir çağırışlar qarşısında birgə strateji addımlar atmaq üçün mühüm fürsət yaratdı. Prezident İlham Əliyev də tədbirdə iştirak edib.

Zirvə görüşündə regionda təhlükəsizlik, iqtisadi əməkdaşlıq və mədəni əlaqələrin gücləndirilməsi, həmçinin Orta Asiya və Qafqaz bölgələrində ekoloji təhlükəsizlik və iqlim dəyişmələri ilə mübarizə məsələləri əsas müzakirə mövzuları olub.

Həmçinin Prezident İlham Əliyevin Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla görüşü olub. Görüşdə dostluq, qardaşlıq və müttəfiqlik münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyi bir daha qeyd olunub.

Azərbaycan Türk Dövlətləri Təşkilatında fəal iştirak edir və burada xüsusi rola malikdir. TDT-nin Azərbaycanın ərazi bütövlüyünü müdafiə etməkdə verdiyi dəstək ölkəmiz üçün xüsusi əhəmiyyət daşıyır. Prezident İlham Əliyevin TDT çərçivəsində müdafiə və təhlükəsizlik sahələrində əməkdaşlığı gücləndirmək təklifi bu istiqamətdə mühüm addımdır. Azərbaycan üçün TDT təkcə iqtisadi əlaqələr deyil, eyni zamanda regional təhlükəsizliyin təminatında mühüm tərəfdaş kimi əhəmiyyətlidir. Ölkəmizin TDT ilə əməkdaşlığı Avrasiya regionundakı geosiyasi dəyişikliklərdə önəmli yer tutur. Bununla yanaşı, TDT-nin Mərkəzi Asiya və Cənubi Qafqazda ticarət və nəqliyyat infrastrukturlarının inkişafına verdiyi dəstək Azərbaycanın da iqtisadi maraqlarına xidmət edir. Məsələn, "Orta Dəhliz" layihəsi Çin ilə Avropa arasında mühüm nəqliyyat əlaqəsi yaradır ki, bu da Azərbaycanın tranzit ölkə kimi əhəmiyyətini artırır. Beləliklə, ölkəmiz həm regionun təhlükəsizliyinə, həm də iqtisadi inkişafına TDT çərçivəsində verdiyi töhfələrlə çıxış edir və türkdilli dövlətlər arasında güclü bağların formalaşmasında xüsusi rol oynayır.

Türk Dövlətləri Təşkilatında üzv ölkələr iqtisadiyyat, təhlükəsizlik və mədəniyyət sahələrində inteqrasiya üçün mühüm addımlar atmış və müxtəlif təşəbbüsləri reallaşdırmaq üçün yeni institutlar yaratmışdır. Bu təşəbbüslər arasında Türk İnvestisiya Fondu xüsusi yer tutur. Fond üzv ölkələrin ortaq iqtisadi inkişafını dəstəkləməklə, infrastruktur və enerji kimi strateji sahələrdə birgə layihələrin həyata keçirilməsinə yönəlib. 2023-cü ildə Qazaxıstan TDT-yə "TURKTIME" devizi altında sədrlik edərək təşkilatın gündəliyində vacib prioritetləri müəyyən etmişdir. Bu prioritetlərə ənənə, islahatlar, investisiya və enerji kimi mühüm sahələr daxil olmuş və ümumilikdə təşkilatın mədəni və iqtisadi inteqrasiyasının gücləndirilməsi üçün nəzərdə tutulmuşdur.

TDT çərçivəsində ticarət əlaqələrinin daha da inkişaf etdirilməsi istiqamətində mühüm addımlar atılmışdır. Ölkələr arasında nəqliyyat əlaqələrinin təkmilləşdirilməsi məqsədilə rəqəmsal ticarət koridoru yaradılmış, xüsusən Trans-Xəzər Nəqliyyat Marşrutu üzrə yükdaşımaların artırılması üçün səy göstərilmişdir. Bundan əlavə, TDT-yə üzv ölkələr Xəzər dənizinin ətraf mühitinin qorunması kimi mühüm ekoloji problemlərin həlli üçün birgə fəaliyyətlər həyata keçirmişdir.

Bişkekdə keçirilən Türk Dövlətləri Təşkilatının Zirvə görüşü, üzv ölkələr arasında iqtisadi, siyasi və mədəni əlaqələrin gücləndirilməsinə yönəlmiş mühüm tədbirdir, xüsusilə rəqəmsal inteqrasiya və enerji təhlükəsizliyi kimi məsələlərə diqqət yetirir. Bu təşəbbüslərdən biri Qazaxıstan tərəfindən dəstəklənən Türk Yaşıl Maliyyə Şurasının təsisidir ki, bu da regionda ekoloji layihələrin maliyyələşdirilməsini gücləndirmək məqsədi daşıyır.

TDT üzvləri arasında texnoloji sahədə də əməkdaşlıq gücləndirilir. Qazaxıstanın "Astana Hub" texnoparkı kimi layihələr vasitəsilə rəqəmsal iqtisadiyyat sahəsində geniş əməkdaşlıq qurulub. Bu cür texnoloji investisiyalar üzv ölkələrin qlobal rəqabət qabiliyyətini artırmağa və yeni texnologiyaların tətbiqinə daha səmərəli keçidə imkan yaradır. TDT, həmçinin ticarət əlaqələrinin asanlaşdırılması məqsədilə rəqəmsal keçidlərin və "yaşıl dəhliz"lərin yaradılmasını da dəstəkləyir.

Türk Dövlətləri Təşkilatı üzv ölkələrin qeyri-sabitlik şəraitində dayanıqlı inkişaf üçün birgə tədbirlər görməsinə və ortaq strateji həll yolları hazırlamasına kömək edir.

Dövlət başçımızın Qırğızıstan səfəri Türk Dövlətləri Təşkilatının Azərbaycanla münasibətlərinin gücləndirilməsi ilə yanaşı, regionda artan strateji əhəmiyyətini göstərir. Builki Zirvə görüşündə, həmçinin enerji təhlükəsizliyi, ekoloji davamlılıq və mədəni irsin qorunması, üzv ölkələr arasında hərbi əməkdaşlıq kimi mövzular da müzakirə olunur. Bu barədə dövlətimizin başçısı deyib: "Hazırda dünyada artan təhlükələri nəzərə alaraq müdafiə, təhlükəsizlik və müdafiə sənayesi sahəsində əməkdaşlığımız böyük əhəmiyyət daşıyır. Son dövrlər hüquq-mühafizə və təhlükəsizlik orqanlarımız arasında əməkdaşlıq daha da genişlənib. Ölkələrimizin silahlı qüvvələrinin iştirakı ilə hərbi təlimlər keçirilir. Hərbi təhsil müəssisələrimizdə qardaş ölkələrin müdavimlərinin təhsil alması qarşılıqlı etimadın və dostluğun göstəricisidir".

Həmçinin bir neçə gün sonra ölkəmizdə keçiriləcək COP29-da Türk dünyası da fəal iştirak edəcək. Prezident İlham Əliyev bildirib ki, Azərbaycan yaxın günlərdə COP29 iqlim konfransına ev sahibliyi edəcək. Keçən ilin dekabrında 200-ə yaxın ölkə Azərbaycanın namizədliyini yekdilliklə dəstəkləmişdir. Bu, beynəlxalq aləmin ölkəmizə böyük hörmətinin və dəstəyinin təzahürüdür. Əminəm ki, Türk Dövlətləri Təşkilatına üzv ölkələr COP29 konfransının işində fəal iştirak edəcəklər.

**Ləman TƏHMƏZ,**
**"Respublika".**